

**Ələsgər Siyablı**
Tarixçi.
Almaniya, Velbert şəhəri

(əvvəli ötən sayımızda)

# 28 Maydan başlayan Turan yolu

## Rəsulzadə dünyagörüşündə türkçülük və turançılıq ideyaları



***Üzərindən bir neçə il keçdikdən sonra Ziya Göyalp 1911-ci ildə bu fikri türkçülüyün əsas prinsipi kimi 'Türkləşmək,İslamlaşmaq və Müasirləşmək' şəklində sistemləşdirilmişdir. İstər Ziya Göyalp, istərsə də Hilmi Ziya Ülkən türkçülüyün bu düsturunun Əli bəy Hüseyinzadəyə məxsus olduğunu qeyd etmişlər.***

***Əli bəy Hüseyinzadə ilə yanaşı M.Ə.Rəsulzadənin siyasi görüşlərinin türkçülük istiqamətində formalaşmasında və inkişafında özünün də qeyd etdiyi kimi ən çox təsir Ziya Göyalp tərəfindən olmuşdur.***

M.Ə.Rəsulzadə həm özünün türkçülük dünyagörüşünün formalaşmasında , həmçinin də qurucusu olduğu Müsavat partiyasının ideoloji xəttinin müəyyən olunmasında Ziya Göyalpın önəmli rolundan bəhs edərək yazırdı: "Mətbuat lisan məsələsi ilə məşğul idi. Bu məsələdə Ziyanın nəzəriyyəsinin müdafiəçisi oldum. Türkçülüyü təriviç üçün Hərbi Ümumi əsnasında təsis etdiyimiz "Açıq söz" qəzetinin başına Ziyanın sepayeyi təfəkkürünü bir deviz olaraq qoyduq.Daha sonra, Ziyanın son zamanlarda "Türk millətindənəm, İslam hümmətindənəm, Qərb mədəniyyətindənəm" şəklində ifadə etdiyi bu deviz türkçülük və xalqçılıq umdələri üzərinə təşəkkül edən milliyətpərvər Müsavat firqəsinin proqram mqəddiməsində yer aldı. Nəhayət Azərbaycan öz istiqlalını elan edirdi. Rus istibdad pəncəsi altında parçalanmış xanlıqlar şəklində deyil, birləşmiş milli kütlə şəklində nicat əldə edən Azərbaycan türklüyü bu istiqlalı təmsil edəcək bayrağa müasir məfkurəsi ilə münasib bir məna vermək istəyirdi. Bu mənanı həmən "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" məfhumlarında gerçəkləşdirdi. Bayrağını mavi, yaşıl və al rəngli qumaşlardan tərtib etdi. Göründüyü kimi Ziya bəyin yalnız Türkiyə siyasəti üzərində deyil, Azərbaycan siyasi düşüncəsi üzərində də qəti təsirləri olmuşdur" (10.128).

Şəxsiyyətinə böyük heyranlıq duyduğu Ziya Göyalpın ictimai-siyasi fəaliyyətini, onun türkçülük ideyasının inkişafındakı rolunu yüksək dəyərləndirən M.Ə.Rəsulzadə Ziya Göyalpın vəfatının ikinci il dönümündə onun məzarı başında bu böyük Türk mütəfəkkirini "böyük bir mübeşşir, milliyət məfkurəsinin ələmdarı, Türkçülük təriqətinin piri kimi özlədiyini" dilə gətirirdi (10.267)

M.Ə.Rəsulzadə Rusiya ilə savaş dönəmində türk xalqları içərisində türkçülük milli şüurunun inkişafında sosioloji nəzəriyyələrlə yanaşı, dövrün türkçülük ruhunu özündə əks etdirən bədii ədəbiyyatın da rolunu yüksək dəyərləndirərək yazır: "Milli türk şairi Mehmet Emin bəyin şeirlər toplusu böyük uğurla yayılırdı. Bundan əlavə, türkçülük problemlərinə aid müxtəlif mövzulara toxunan bir sıra nəsr əsərləri meydana çıxdı. Yaqub Qədri və Orxan Seyfinin hekayələri, tanınmış türk yazarı Xalidə Ədibin romanları "qurtulmuş Turan"ın ideal tipləri və obrazlarını əks etdirirdi. Bu baxımdan, Xalidə xanımın "Yeni Turan" adlı romanı xüsusilə səciyyəvi idi (7.50).

M.Ə.Rəsulzadənin türkçü-turançı görüşləri əsasən onun "Əsrimizin Siyavuşu" , "Azərbaycan Cümhuriyyəti", "Panturanizm haqqında" əsərlərində, çoxsaylı məqalələrində əks olunmuşdur.

***M.Ə.Rəsulzadə əsrin əvvəllərində populyar olan panturanizm cərəyanının da geniş və məntiqli təhlilini verir. Panturanizm siyasi hadisələrin təsiri altında transformasiyaya uğrayıb bir fikir cərəyanından cəmiyyətin daha geniş təbəqələrini əhatə edən ictimai-siyasi hərəkatın 'düşüncə sisteminə çevrildikcə, onun daxilində iki təmayül - mərkəzçilərin romantik cərəyanı və federalistlərin realist cərəyanı ortaya çıxmağa başlayır. Birinci cərəyanın nümayəndələri millətin irqi anlamı tərəfdarı olan alman nəzəriyyəçilərinin təsiri altında hesab edirdilər ki, türk xalqlarının təkcə qan qohimluğu, dillərinin yaxınlığı, eləcə də onların eyni dinə mənsubluğu, müəyyən əlverişli siyasi şəraitdə vahid türk dövlətinin yaradılması üçün yetərlidir. Realist cərəyan isə, hərəkatın ən yüksək idealından ilham almasına rəğmən, romantik xəyallarından daha çox, milli şüurun oyanmasının gerçək nəticələrinə önəm verirdi. Realist cərəyanın təmsilçiləri bütün türk xalqlarının ortaq milli-mədəni maraqlara malik olduqlarını dərk etsələr də, hər halda, bu xalqların mərkəzləşmiş bir dövlətdə birləşməsi onlara mümkünsüz görünürdü. Onlar müxtəlif türk xalqlarının, ilk növbədə, ayrı-ayrı müstəqil dövlətlər şəklində azad olmasına çalışırdılar. (7.54).***

M.Ə.Rəsulzadənin özü türkçülüyün realist cərəyanına mənsub idi. Realistlər öz fəaliyyətlərində Turan birliyi məsələsində mifoloji qəhrəmanlığın romantik xəyalpərvər düşüncəsini deyil, dövrün real siyasi gerçəkliyini rəhbər tuturdular. Onlar Turanı bütün türkləri öz tərkibində birləşdirən vahid dövlət təşkilatı kimi deyil, türk xalqlarının qurduqları ayrı-ayrı dövlətlərin konfederativ birliyi kimi təsəvvür edirdilər. Azərbaycan siyasi həyatında Müsavat partiyası Türk dövlətlərinin konfederativ birliyinin, İttihad Partiyası, Əhrar Partiyası isə Azərbaycanın Osmanlı dövlətinə birləşdrilməsi ilə vahid Turan dövlətinin yaranması tərəfdarı kimi çıxış edirdilər. Azərbaycanın Osmanlı Türkiyəsinə birləşməsi ilə vahid Turan dövləti yaradılması cərəyanına türkçülük məfkurəsinin yaradıcılarından biri olan Əhməd bəy Ağaoğlu rəhbərlik edirdi.

Romantik türkçülərin təmsilçisi Əhməd bəy Ağaoğlunun, onun tərəfdarlarının və həmçinin Nuri paşanın Cümhuriyyət elanının ilk günlərində Cümhuriyyətə münasibətdə sərgilədikləri müəyyən tərəddüdlər müasir dövrdə Osmanlı dövlətinin guya Azərbaycan Cümhuriyyəti əleyhdarı olması haqqında bir sıra spekluyativ fikirlərin yaranmasına səbəb olmuşdur.Əlbəttə Azərbaycan istiqlaliyyətinin əldə olunmasında misilsiz rol oynamış Qafqaz İslam Ordusu rəhbərliyi müstəqil Azərbaycan Cümhuriyyəti dövlətinin əleyhdarı deyildilər.Türk xalqlarının əsarətdən qurtulması ilə yaradılacaq vahid Turan dövlətinin idarəçilik formasının müəyyən olunmasında romantik mərkəzçi türkçülərlə konfederativ qruluş tərəfdarı realist türkçülər arasında bəzi fikir ayrılığı var idi.Romantik türkçülərin fikrinə görə Birinci Dünya savaşında məğlub olaraq öz ərazilərini itirən Osmanlı imperiyasının Anadolu-türk ərazisi və Azərbaycan da daxil olmaqla əsarətdən xilas ediləcək türk yurdları yeni yaradılacaq Turan dövlətinin tərkib hissəsini təşkil edəcəkdilər.Ənvər paşa məhz bu yeni Turan dövlətini yaratmaq xəyalı ilə Türkistanda rus və ingilis imperializminə qarşı ölüm-dirim savaşına başlamışdı.İlk zamanlar Azərbaycan Cümhuriyyətinə münasibətdə mövcud olan bu tərəddüdlər sonrakı dövrdə tamamilə aradan qalxmışdır.

İstər Osmanlı Türkiyəsində, istərsə də Rusiya türklərində turançılıq-türkçülük düşüncəsinin meydana çıxması yalnız əfsanələrə söykənən bir xəyal məhsulu deyildi.Turançılıq düşüncəsi XIX əsrdə Avropa tarixçilərinin və linqvistlərinin Ön Asiyanın qədim tarixinin araşdırmaları nəticəsində gəldikləri elmi fikirlərə əsaslanırdı.

XIX əsr və XX əsrin əvvəllərində fəaliyyət göstərmiş Y.Oppert, F.Lenorman, F.Hommel, E.Hinks, H.Rauilson,,B.Bunsen, E.Norris, Mordtmann,A.Kastren və s. kimi Ön Asiyanın qədim tarixini araşdıran görkəmli tarixçi assuroloqlar Turanizm nəzəriyyəsi irəli sürmüşlər. Bu nəzəriyyəyə görə Turan dünya tarixinin qədim dövrünü təşkil etmişdir, sami və ari irqləri tarix səhnəsinə qədəm qoymadan min illər öncə turanlı öntürklər yer üzərinə yayılaraq onu məskunlaşdıran ilk irq olmuşdur. Onların Turan irqi adlandırdıqları öntürklər (prototürklər) bəşər uyqarlığının özülünü yaratmış ilk mədəni insanlardır.M.Ə.Rəsulzadənin Turançılıq haqqında görüşləri Avropa alimlərinin Turanizm nəzəriyyəsinə və onların elmi araşdırmalarındakı faktlara əsaslanırdı.

***M.Ə.Rəsulzadə Turanizm nəzəriyyəsinin və türklərin tarixini araşdıran tarixçilərin elmi fikirlərinin türk ziyalıları üzərində göstərdiyi təsiri ifadə edərək yazır: 'German Vamberinin Orta Asiyaya səyahəti, Fon Lekokun ideal tapıntısı, Leon Kahunun türk irqinin tarixi haqqında məşhur kitabı, Radlovun tərtib etdiyi türk ləhcələrinin lüğəti və Bartoldun Türküstan tarixinə dair elmi əsərləri, eləcə də bir çox digər şərqşünas-türkoloqların araşdırmaları bu və ya digər formada türk ziyalılarına çataraq, onlarda müəyyən bir reaksiya doğururdu. Türk milli şüurunun başlıca amili isə, əlbəttə ki, bu gün dünyanın mütərəqqi reallıqlarından biri olan milli ideologiyanın ümumi inkişafı idi.(7.49).***

(ardı gələn sayımızda)